# XƏZƏR DƏNİZİNDƏ YAŞAYAN ENDEMİK BALIQ NÖVLƏRİNİN QORUNMASI, MÜHAFİZƏSİ VƏ ARTIRILMASI TƏDBİRLƏRİ

**Elçin Məmmədov*, Mələk Bağırova, Nərgiz Quliyeva,**
**Nuranə Babayeva, Səriyyə Hüseynzadə**

*AR ETSN Balıqçılıq və Akvakultura Elmi-Tədqiqat Mərkəzi, Bakı*
**evmamedov@mail.ru*

Xəzər dənizi planetin ən böyük qapalı su hövzəsi olan unikal ekoloji şəraitə və ixtiofaunanın bir sıra endemik (yalnız burada yaşayan) nümayəndələrinə malik olan hövzədir. Bu, qiymətli balıq ehtiyatları baxımından ən zəngin dənizlərdən biridir. Ümumilikdə, Xəzər dənizində və onun hövzələrində balıqların 140 növ və yarımnövü vardır (İvanov və b., 2023). Bunların 100 növü endemik balıq növünə aiddir, siyənəkkimilər və xulkimilər fəsiləsi üstünlük təşkil edir (Kosarev, Yablonskaya 1994; Aladin, 2023). Növlərin sayına görə ən çoxsaylı fəsilələr xulkimilər (*Gobiidae)* (35 və 12 cinsin növləri), çəkikimilər – (*Cyprinidae*) (22 cins, 33 növ və yarımnöv) və siyənəkkimilərdir (*Clupeidae*) (21 növ və yarımnöv). Bütün siyənəklər (*Clupeidae*) – keçici və dəniz siyənəkləri (*Alosa*), kilkələr (*Clupeonella*), xulkimilər və digər balıq növləri arasında endemik növlərin nümayəndələri çoxluq təşkil edir.

Xəzər dənizindəki endemik balıq növləri üçün əsas təhlükələrə həddindən artıq balıq ovu, çirklənmə, bənd tikintisi və iqlim dəyişikliyi daxildir.

Son onillikdə aparılmış tədqiqatların nəticələrinə əsasən, Azərbaycan Respublikasında su hövzələrinin ixtiofaunası 56 cins, 18 fəsilə, 13 dəstəyə aid olan 113 növ və yarımnöv olmaqla dəyirmiağızlılar və balıqlarla təmsil olunmuşdur (Mustafayev, 2024). Faunaya daxil olan balıq və dəyirmiağızlıların 66 növ və yarımnövü yalnız şirin sularda kürüləyir. Azərbaycanın sututarlarındakı balıqlardan yalnız 26 növ və yarımnövü vətəgə əhəmiyyətinə malikdir. Bunlardan 11 növ Azərbaycan Respublikasının "Qırmızı Kitab"ına daxil olmuşdur (2023).

Azərbaycan ixtiofaunasına daxil olan balıqlardan 45 növ və yarımnövü – Xəzər kilkəsi, ançousabənzər kilkə, irigöz kilkə, Xəzər şişqarını, irigöz şişqarın, Sara şişqarını, Aqraxan siyənəyi, Dolgin siyənəyi, Sara

siyənəyi, Həsənqulu siyənəyi, irigöz siyənək, ağbaş siyənək, Kür siyənəyi, Xəzər iynəbalığı, sivriburun kefal, qızılı kefal, Xəzər aterini, dəniz sıfı, Qafqaz xulu, İlyin xulu, uzunquyruq xul, xval xulu, Xəzər girdə xulu, Xəzər qumluq xulu, Xəzər çapar xulu, dərinlik xulu, iribaş xul, Xəzər şirman xulu, Xəzər ratan xulu, mərmər xul, boz qamçılı xul, kaspiosoma xulu, iribaş çömçəxul, Brauner xulu, şəffaf çömçəxul, Pinçuk çömçəxulu, Rəhimov çömçəxulu, nazikbaş çömçəxul, Berq çömçəxulu, Ber çömçəxulu, tikanlı çömçəxul, ziyilli çömçəxul, Qrimm çömçəxulu, nazikburun çömçəxul, ördəkburun çömçəxul daima Xəzər dənizində yaşayıb, orada çoxalır (Məmmədov, 2021, 2023, Mustafayev, 2024).




**Şəkil.** Xəzər dənizinin endemik balıq növləri

Xəzər dənizinin ən qiymətli növü nərəkimilər (*Acipenseridae*) hesab edilir. Bu növ həm relikt, həm də endemikdir. Nərəkimilərin Xəzərdə 6 növünə – bölgə, Kür nərəsi, Rus nərəsi, kələmo, uzunburun, çökəyə rast gəlinir. Nərə balıqları dünyanın ən qədim ibtidai və relikt balıqlarındandır. Xəzər dənizində dünya nərə balıqları populyasiyasının əhəmiyyətli bir hissəsi yaşayır və hesablamalara görə, dünya nərə balığı növlərinin 80-85%-ini təşkil edir.

Nərə balıqlarının populyasiyaları bütün dünyada ciddi təhlükələrlə üzləşir, hazırda qalan 26 növ nərəcinsli balıqların hamısı rəsmi olaraq IUCN Qırmızı siyahısına kritik təhlükə altında olan növlər kimi daxil edilib. Nərə balıqlarının təkamül tarixi təxminən 208-245 milyon il əvvəl Trias dövrünə təsadüf edir. Hazırda nərə balıqlarının təbii populyasiyaları azalaraq, həddindən artıq ovlanması, qanunsuz balıq ovu, kürütökmə yerlərinin dağıdılması, Xəzər dənizi hövzəsində çaylarda su anbarlarının tikilməsi, şirin suların çirklənməsi və çoxalma miqrasiyalarına çıxış üçün insan tərəfindən yaradılmış maneələr səbəbindən yox olmaq təhlükəsi ilə üzləşir. Keçən əsrin son onilliklərində nərəkimilərin sayında kəskin azalmalar qeydə alındı. 2011-ci ildə Xəzər dənizində nərəcinsli balıqların kommersiya (sənaye) ovuna moratorium elan edildi.

Son illər ərzində (2019-2022) İDEA İctimai Birliyinin rəhbəri Leyla Əliyevanın iştirakı ilə AR ETSN tərəfindən Xəzər dənizində nərəcinsli balıqların sayının artırılması və ehtiyatlarının bərpası məqsədilə Kür çayının mənsəbinə 342000-566000 ədəd nərəcinsli balıq körpələri buraxılmışdır.

Təbii bioloji resurslarla zəngin olan Xəzər dənizində xulkimilər fəsiləsindən nazikbaş çömçəxul, Ber çömçəxulu, Brauner xulu, Qrimm çömçəxulu, nazikburun çömçəxul, Pinçuk çömçəxulu, tikanlı çömçə-xul, şəffaf çömçəxul, iribaş xul, ördəkburun çömçəxul, Knipoviç xulları, dərinlik xulu, iribaş çömçəxul, İlyin xulu, Kaspiosoma xulu, uzunquyruqxul, Qafqaz xulu, çapar xul, Ratan xulu, Şirman xulu, Xval xulu, girdə xul, Rəhimov çömçəxul balığı geniş yayılmış endemik növlər hesab edilir. Siyənəkkimilər fəsiləsindən Volga siyənəyi, Qızılağac siyənəyi, ağbaş siyənək, Həsənqulu siyənəyi, irigöz siyənək, Sara siyənəyi, Aqraxan siyənəyi, Dolgin siyənəyi, irigöz şişqarın, Xəzər-Qara dəniz şişqarını, qarabel siyənək endemik növlərdir.

Həmçinin, işğaldan azad edilmiş rayonlarımızda balıq ehtiyatlarının növ zənginliyinin bərpası hazırkı dövrdə aktual məsələlərdən hesab edilir və bu istiqamətdə xüsusi işlər həyata keçirilir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin uğurlu siyasətinin nəticəsi olaraq ölkəmiz BMT-nin İqlim dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası COP29-a ev sahibliyi etməklə iqlim dəyişmə-

lərinin fəsadlarını aradan qaldırmaq, bu prosesin təsir aspekti olan su ehtiyatlarından səmərəli istifadə, o cümlədən su bioloji ehtiyatlarının biomüxtəlifliyinin qorunması işlərinə xüsusi diqqət ayırır.

Təbii su hövzələrində su bioloji resurslarının qorunması, sayının artırılması və növlərin populyasiyasının bərpası məqsədilə mütəmadi olaraq balıq körpələrinin buraxılışı həyata keçirilir. 2022-2023-cü illər ərzində ümumilikdə 4 446 231 ədəd Xəzər qızılbalığı, kütüm balığı, nərəcinsli balıq körpələri, qızılxallı, çəkikimilər dəstəsinin müxtəlif növləri Qızılağac Körfəzinə, Göygöl Milli Parkı ərazisində Göygöl gölünə, Sarısu gölünə, Mingəçevir, Şəmkir və Yenikənd su anbarlarına, Kür çayına, işğaldan azad edilmiş Zəngilan rayonu ərazisində Həkəri çayına, Bəsitçaya, Tərtər rayonu ərazisində Suqovuşan su anbarı və Ağdam rayonu ərazisində Xaçınçay su anbarına buraxılmışdır.

Beləliklə, endemik balıq növlərinin qorunması Xəzər dənizinin ekosisteminin bütövlüyünü və onun biomüxtəlifliyini qorumaq üçün xüsusi əhəmiyyət kəsb edir.